# TWINNING NEWSLETTER

**Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək**

## 4-cü buraxılış, Iyun 2021-ci il

**Mövzular**

- ✓ Ümumi Statistik Biznes Prosesi Modelinə (GSBPM) əsasən Biznes prosesi
- ✓ Statistik Müəssisə; profilləşdirmə və konsolidasiya
- ✓ BD statistikasının tərtib edilməsi
- ✓ KOB indikatorları üzrə yeni namizədlərin qiymətləndirilməsi
- ✓ SBS üçün imputasiyanın aparılması
- ✓ SBS-də İnzibati Məlumatlardan (İM) istifadə (2-ci hissə)
- ✓ BÖ-nün təlim ehtiyacları və təlimlərə hazırlıq: Biznes sorğularında istifadə olunan seçmə planlarının nəzərdən keçirilməsi və qiymətləndirilməsi

**Gələcək fəaliyyətlər**

- ✓ BD statistikasının aparılması (2-ci hissə)
- ✓ SVDR proqram təminatının yenilənməsi və genişləndirilməsi
- ✓ Yeni KOB hesabatının planlaşdırılması
- ✓ Yeni KOB hesabatının nəsrinin dəstəklənməsi

### Layihə barədə

Aİ tərəfindən maliyyələşdirilən bu Tvinninq layihəsi (AZ/16/ENI/ST/01/19 (AZ/53)) Finlandiyanın Statistika İdarəsinin rəhbərlik etdiyi və Litvanın Statistika Departamenti və Niderland Mərkəzi Statistika Bürosunun kiçik tərəfdaş kimi daxil olduğu **konsorsium** tərəfindən həyata keçirilir. Həmçinin Danimarkanın Statistika İdarəsi və Finlandiyanın İctimai İdarəetmə İnstitutu layihəyə əlavə dəstək təmin edir.

**Əsas benefisiar təşkilatlar** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir. Tvinninq laihəsinin **ümumi məqsədi** Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarətdir.

**Nəşr etdi:** Tvinninq ofisi
**Ünvan:** İnşaatçılar prospekti 81, Bakı şəhəri, AZ 1136
Tel: +994 12 377 10 70
**Veb-səhifə:** **http://www.stat.fi/aztwinning**
Bizi izləyin:
**Xəbər bulletenimizə abunə olmaq istəyirsinizsə, gultakin.babayeva@stat.fi e-poçtuna müraciət göndərməyinizi xahiş edirik.**

## Layihə xəbərləri

6 aprel 2021-ci il tarixində Tvinninq layihəsinin **İdarəetmə Komitəsinin üçüncü görüşü** keçirilmiş və Layihənin gedişatına dair hesabat, Kommunikasiya və İşıqlandırma Planına dair qısa məlumat, layihənin növbəti mərhələsində həyata keçirilməsi planlaşdırılan fəaliyyətlərin təqdimatı və müzakirəsi, layihə cədvəli və layihənin icra müddətinin uzadılması, fəaliyyətlərə dair verilən rəylərin icmalı və risklərin təhlili və nəzərdən keçirilməsi kimi mövzular müzakirə edilmişdir. Görüşün sonunda komitənin üzvləri layihənin üçüncü rübü barədə öz fikirlərini bölüşdülər, əldə olunmuş nəticələrdən razı qaldıqlarını ifadə etdilər və qarşılaşan çətinlikləri müzakirə etdilər.




Ekspertlər cənab Antti Santaharyu (Finlandiya Statistika İdarəsi) və xanım Nadejda Fursova (Litva Statistika Departamenti) tərəfindən 3-cü Nəticə (SVDR-in aparılmasında istifadə olunan proqram təminatının funksionallığının daha da genişləndirilməsi üçün layihə hazırlanacaqdır) üzrə **ilk Fəaliyyət (3.1.A)** həyata keçirilmişdir. Ümumi Statistik Biznes Prosesi Modelinə (GSBPM) əsasən DVX məlumatlarının ötürülməsi üzrə biznes prosesinin modelləşdirilməsinə həsr olunmuş və 8-29 aprel 2021-ci il tarixləri çərçivəsində keçirilmiş Fəaliyyətin məqsədləri DVX məlumatlarının ötürülməsini GSBPM-ə əsasən təsvir edilməsi və yeni İnzibati Məlumatların və GSBPM-in təhlili olmuşdur. Keçirilmiş dörd distant sessiya ərzində QME-lər yeni məlumat mənbələri və GSBPM, mənbələrdən istifadə edərək qarşılanacaq istifadəçi ehtiyacları və yeni məlumatların bu vəzifənin dayanıqlılığına verəcəyi töhfəyə dair müzakirələr aparmışlar. Ekspertlər və BÖ-dən olan tərəf müqabilləri Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmiləri tərəfindən hazırlanmış biznes prosesi hesabatını nəzərdən keçirmiş və sənəd tamamlanmışdır. Fəaliyyət nəticəsində biznes proseslərinin GSBPM-ə uyğun modelləşdirilməsinin davam etdirilməsi məqsədilə ekspertlər (qısamüddətli və uzunmüddətli) tövsiyələr hazırlayaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim etmişlər.




**Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir**

Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Ekspertlər cənab Timo Laukkanen (1-ci Komponentin rəhbəri, Finlandiya Statistika İdarəsi) və cənab Soren Kristensen (Danimarka Statistika İdarəsi) tərəfindən həyata keçirilən **2.1.C saylı Fəaliyyətin** məqsədi Statistik müəssisə, profilləşdirmə və konsolidasiya sahəsində potensialın artırılması olmuşdur. Dörd distant sessiya müddətində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsindəki (DSK) vəziyyət ekspertlər və onların BÖ-dən tərəf müqabilləri tərəfindən təhlil edilmiş və Avropa İttifaqına üzv dövlətlərin qabaqcıl praktikalarına dair təqdimatlar olunmuşdur. Müəssisə Qrupu Reyestrinin (MQR) məlumat bazası strukturu formalaşdırılmış və MQ-nin yaradılmasında qarşılaşan çətinlikləri müəyyən etmək məqsədi ilə bir sıra müəssisə qrupları üzrə iş aparılmışdır. Bu növ praktiki məşğələlər BÖ ekspertlərinə MQR-in yaradılması prosesinə başlamağa yardım edəcək.

Fəaliyyət nəticəsində ekspertlər tərəfindən gələcək üçün tövsiyələrin, missiya nəticələrinin və nailiyyətlərin dayanıqlılığına dair məsələlərin əhatə olunduğu missiya hesabatı hazırlamışdır.




5-ci Nəticənin 2-ci Komponentinin sayca 3-cü **5.3.A saylı fəaliyyəti** Finlandiya Statistika İdarəsindən xanım Ulla Virtanen, xanım Merja Myllymäki və xanım Saara Roine (2-ci Komponentin rəhbəri) tərəfindən həyata keçirilmişdir. Missiyanın məqsədi növbəti KOB hesabatına daxil ediləcək indikatorlar siyahısının DSK, DVX və KOBİA ilə birlikdə təsdiqlənməsindən ibarət olmuşdur.

4 distant sessiya müddətində bir sıra üzv dövlətin KOB üzrə hazırladıqları statistik məcmuələri təqdim edilmiş, mənbə məlumatlarının vəziyyəti nəzərdən keçirilmiş, yeni/yenilənmiş KOB hesabatına daxil ediləcək indikatorların siyahısı hazırlanmış və növbəti KOB hesabatının strukturuna dair müzakirələr aparılmışdır. Ekspertlər həmçinin Milli Hesablar və Biznes Statistikası arasında fərqləri şərh etdilər. Bundan əlavə, Avropa Statistika Sisteminin keyfiyyət və metaməlumat hesabatları üzrə təlimatlarına istinadən keyfiyyət məsələlərinə dair hesabat mövzusu da müzakirə edilmişdir.

Fəaliyyət nəticəsində ekspertlər yenilənmiş KOB hesabatı üzrə qısa, orta və uzunmüddətli tövsiyələrin əks olunduğu missiya hesabatı hazırladılar. DSK yay fəsli ərzində yeni KOB hesabatı üçün təsviredici mətnin və metaməlumatların, eləcə də hesabatın ilkin planının hazırlanmasına başlayacaq. DSK-nın yeni/yenilənmiş məcmuəyə 20 yeni indikator əlavə etməsi və hesabatın dekabr ayının ortalarınadək nəşr edilməsi olduqca ümidvericidir.




2021-ci ilin aprel ayında 3-cü Komponentin 6-cı Nəticəsi çərçivəsində **6.1.A, 6.2.A and 6.3.**A saylı fəaliyyətlər həyata keçirilmişdir. Fəaliyyətlər BÖ-nün təlim ehtiyaclarını və təlimlərə hazırlıq məsələlərini əhatə etmişdir. İki distant sessiya zamanı Azərbaycanda keçiriləcək təlimlərin iştirakçıları arasında sorğu aparılmış, məlumatlar toplanmış və təlimləri iştirakçıların ehtiyaclarına uyğunlaşdırmaq üçün təhlil edilmişdir. Finlandiyanın Statistika İdarəsindən olan component rəhbərləri cənab Jukka Hoffren, cənab Timo Laukkanen, xanım Saara Roine və Finlandiyanın İctimai İdarəetmə İnstitutundan cənab Timo Kuntsi tərəfindən təlim kurslarının ilkin məzmunu hazırlanmışdır.

Finlandiya Statistika İdarəsinin ekspertləri cənab Timo Laukkanen, xanım Sini Liukkonen və Litva Statistika Departamentinin eksperti cənab Maksim Lata tərəfindən **2.2.B saylı Fəaliyyət** həyata keçirilmişdir. 2021-ci ilin iyun ayında baş tutmuş fəaliyyətin məqsədi Biznes Demoqrafiyası (BD) üzrə potensialın artırılması olmuşdur. QME-lər və BÖ-dən tərəf müqabilləri İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində mövcud vəziyyəti təhlil etdilər və expertlər Aİ Üzv Dövlətlərinin qabaqcıl təcrübələrinə dair təqdimatlar etdilər. Sessiya ərzində aparılan müşahidələrə əsasən prosesin təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir. Finlandiya Statistika İdarəsindən götürülmüş psevdo məlumatlar daxil edilmiş excel faylı vasitəsilə tutuşdurma prosesi, aktiv müəssisələr, aktiv işəgötürən müəssisələr, güman edilən (işəgötürən) doğum, güman edilən (işəgötürən) ölüm, həqiqi doğum və ölüm, eləcə də sağqalma dəyişənlərinin hesablanması üçün istifadə edilə biləcək formulalar təqdim edilmişdir. Həmçinin fəaliyyət çərçivəsində adi BD sıraları, işəgötürən müəssisə sıraları və yüksək templə inkişaf edən müəssisə sıraları kimi müxtəlif BD sıraları əhatə olunmuşdur.

Fəaliyyətin nəticəsi olaraq ekspertlər tərəfindən missiya hesabatı hazırlanmış və BÖ rəsmiləri tərəfindən təsdiqlənmişdir.




Tvinninq layihəsinin **İdarəetmə Komitəsinin dördüncü iclası** telekonfrans formatında keçirilmişdir. 23 iyun 2021-ci il tarixində baş tutan iclasda böyük və kiçik layihə rəhbərləri, Aİ Nümayəndəliyinin və Layihələrin İdarəedilməsi Ofisinin nümayəndələri, komponent rəhbərləri, Rezident Tvinninq müşaviri və BÖ-dən maraqlı tərəflər iştirak etmişdir. İclasda aşağıdakı mövzular müzakirə edilmişdir:

- Kommunikasiya və İşıqlandırma Planına dair qısa məlumat
- Layihənin növbəti mərhələsində həyata keçirilməsi planlaşdırılan fəaliyyətlər
- Tövsiyələr və İş Planının təsdiqlənməsi
- Büdcə və maliyyə vəsaitlərinin müvafiq istiqamətlərə yönləndirilməsi
- İnsan resursları, razılıq məktubları və əlavələr

Aİ Nümayəndəliyini təmsil edən layihə meneceri xanım Ülviyyə Abdullayeva bildirdi ki, Əlavə 2 AİN sistemində təsdiqlənmişdir və beləliklə, layihənin icra müddəti 24/11/2021 tarixindən 24/04/2022 tarixinədək uzadılmışdır.




**4.2.B saylı Fəaliyyət** Litva Statistika Departamentindən xanım Antanina Valiulien e və cənab Andrius Ciginas tərəfindən həyata keçirilmişdir. Fəaliyyətin məqsədi cari sorğu məlumatlarını İnzibati Məlumatlarla mikro və ortalama səviyyələrdə müqayisə etmək, fərqləri və onların səbəblərini, eləcə də məlumatların keyfiyyəti ilə bağlı problemləri müəyyən etmək, hesabat hazırlamaq, İnzibati məlumatların statistika istehsalı üçün uyğunluğunu qiymətləndirmək və İnzibati məlumatlaırn mübadiləsi üzrə uzunmüddətli ehtiyacları dəqiqləşdirmək olmuşdur. Reqressiya təhlilləri və korrelyasiya diaqramları vasitəsilə SBS və DVX dəyişənlərinin mikro və ortalama səviyyələrdə müqayisəsi aparılmışdır. Fəaliyyətin sonunda missiya hesabatı hazırlanmışdır.

**Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir**


Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir